# Heydər Əliyev və Gürcüstanda Azərbaycan mədəniyyəti

**Bu il Azərbaycan xalqı və dünya azərbaycanlıları ümummilli lider Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Mən xoşbəxt adamam ki, ulu öndərlə şəxsən görüşüb, söhbət etmişəm. Onunla görüş, onun soydaşlarımıza qayğısı mənim, eləcə də Gürcüstanda yaşayan digər azərbaycanlıların həyatında dərin iz buraxıb.**



Bu sözləri Gürcüstan Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İsak Novruzov söyləyib. O, ümummilli liderlə unudulmaz görüşünü xatırlayaraq deyib: "1996-cı il yanvarın 5-də Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Aslan Aslanovun təşkilatçılığı ilə mən, sabiq deputatlar Ramiz Bəkirov və Hidayət Hüseynov Heydər Əliyevlə görüşdük. Bu görüş bizim üçün tarixi, həm də çox məsuliyyətli görüş oldu".

Onun sözlərinə görə, həmin illərdə Azərbaycanda olduğu kimi, Gürcüstanda da vəziyyət gərgin olub. Buna baxmayaraq, Gürcüstan parlamentinin deputatları bütövlükdə, ölkəyə, xüsusən də azərbaycanlılara kömək göstərilməsi ilə bağlı Heydər Əliyevə müraciət ediblər.

İsak müəllim xatırlayır ki, keçən əsrin 90-cı illərinin ortalarında Gürcüstanda vəziyyət daha ağır idi. Bunu nəzərə alaraq, ulu öndərə bildiriblər ki, azərbaycanlılar işgüzardır, zəhmətkeşdir, hər necə olsa öz başlarını dolandırırlar. Lakin ciddi problemləri də var. Bununla yanaşı, bir sıra ictima problemlər həllini gözləyir. Məsələn, Tbilisidə M.F.Axundovun Ev Muzeyinin təmirə ehtiyacı var. Bildiriblər ki, Gürcüstan çoxmillətli dövlətdir və burada hər bir millət öz mədəniyyəti ilə tanınır.

Dahi şəxsiyyət, böyük siyasi xadim Heydər Əliyev onları dinlədikdən sonra muzey məsələsi ön plana çəkilib. Çox keçmədən muzey əsaslı təmir olunub və bu gün Azərbaycan mədəniyyətinin təbliğində mühüm rol oynayır.

Ulu öndərlə digər görüşlərini xatırlayan İsak Novruzov deyib: "Heydər Əliyev Gürcüstana səfərə gələndə Rustaveli adına Opera və Balet Teatrında azərbaycanlılarla görüşdü. Həmin görüşdə Azərbaycan lideri mühüm tarixi əhəmiyyət kəsb edən fikirlər söylədi. O, bizə müraciət edərək dedi ki, siz diaspor deyilsiniz. Siz Gürcüstanda aborigen xalqsınız və Gürcüstan sizin vətəninizdir. Siz də bizim soydaşlarımızsınız, tək deyilsiniz".

Görüşdə İsak müəllimi ulu öndərə yanacaq məsələsi ilə bağlı vacib məlumat çatdırıb. Bildirib ki, Azərbaycandan Gürcüstana verilən yanacaq bəzi düşmən qüvvələrin əli ilə Ermənistana ötürülür. Heydər Əliyev isə qeyd edib ki, Bakı məhz azərbaycanlılara görə, Gürcüstana yanacaq verir. O, eyni zamanda, sübut üçün sənəd istəyib. İ.Novruzov lazımi sənədləri Heydər Əliyevə təqdim edib. Sonralar o, Bakıda olanda öyrənib ki, Heydər Əliyev həmin məsələni araşdırıb və məlumat təsdiqini tapıb.

İ.Novruzovun sözlərinə görə, Gürcüstanda aborigen azərbaycanlılarla yanaşı, müxtəlif vaxtlarda Azərbaycandan köçüb buraya gələnlər də var: "Bizim də kökümüz Azərbaycana gedib çıxır. Buradakı azərbaycanlıların qədim tarixi, mədəniyyəti, adət-ənənələri var. Telavi rayonunun Qaracala kəndinin 500 ildən çox yaşı var. Laqodexinin Qabal kəndi, həmçinin, çox qədimdir. Ulu öndər də bunu yaxşı bilirdi. Ona görə də hər zaman çalışırdı ki, soydaşlarımız öz mədəniyyətlərini, ana dili və digər milli keyfiyyətlərini unutmasınlar".

Ümummilli liderimizin ciddi səyləri nəticəsində bu gün paytaxt Tbilisidə M.F.Axundovun, Nəriman Nərimanovun, eləcə də Cəlil Məmmədquluzadənin ev muzeyləri fəaliyyət göstərir. Tbilisidəki küçələrin birinə Bakı, bir sıra digər küçələrə isə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı verilib.

İ.Novruzov deyib: "Qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycanla Gürcüstan arasında nümunəvi dostluq əlaqələri var. Bu gün Tbilisinin mərkəzində və Rustavi şəhərində Heydər Əliyev parkının salınması, ulu öndərin abidəsinin ucaldılması ölkələrimiz arasındakı möhkəm və sarsılmaz dostluğun bariz nümunəsidir".

Gürcüstan Azərbaycanlı Ağsaqqallar Şurasının sədri sonda bildirib: "Azərbaycanın müdrik və praqmatik Prezidenti İlham Əliyev də ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Ona görə də inanırıq ki, ölkələrimiz arasında əsrlər boyu mövcud olmuş dostluq münasibətləri daim yaşayacaq. Heydər Əliyevin xatirəsi isə Gürcüstan azərbaycanlılarının və gürcü xalqının yaddaşından heç vaxt silinməyəcək".

***Nəriman ƏLİYEV***

***Yazı Diasporla İş üzrə Dövlət Komitəsi və "Xalq qəzeti"nin birgə layihəsi əsasında hazırlanıb***

Xalq qəzeti .- 2023.- 25 fevral.- S.7.